# «Gömrük tarifi haqqında» Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikasının 2010-cu il 22 iyun tarixli, 1053-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

«Gömrük tarifi haqqında» Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikasının 2010-cu il 22 iyun tarixli, 1053-IIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, üç ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının «Gömrük tarifi haqqında» Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. öz səlahiyyətləri daxilində «Gömrük tarifi haqqında» Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə dəyişikliklər və

əlavələr edilməsi barədə» Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 13 avqust 2010-cu il***

***№ 1058***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (15 avqust 2010-cu il, № 177) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 avqust 2010-cu il, № 8 (158), maddə 733) («VneshExpertService» LLC).***

*© «VneshExpertService» LLC*